## Yeni kitablar

**Xalq şairi Sabir Rüstəmxanlının dil, ədəbiyyat və cəmiyyət haqqında duyğu və düşüncələri, ədəbi-nəzəri məqalələri, tanınmış qələm sahiblərindən bəhs edən portret oçerklərindən ibarət yeni kitabı işıq üzü görüb.**




Hər zaman bütün məsələlərə fəal vətəndaş mövqeyindən yanaşan müəllifin sanballı həcmdə çap olunan bu kitabı da istər ədəbi tənqid, istər ictimai təfəkkür estetikası, istərsə də ziyalı hesabatı baxımından önəmlidir. Toplu, onun redaktoru Səhər Əhmədin hanından kəsilənlər”, “Dilə sayğı milli əxlaq göstəricisidir”, “Şeirimizin dili”, “Söz və qılıncın birliyi”, “Milli intibah nədən başlanır” və digər yazıları misal çəkmək olar.

“Yazıçının özü və sözü” bölümü ədəbi portretlərdən ibarətdir. Burada unudulmaz Mirzə İbrahi-

# “Özümüzdən böyük sözümüz”

“Ön söz”də uğurlu şəkildə ifadə etdiyi kimi, həmişə ədəbiyyatımızın, dilimizin, bütövlükdə cəmiyyətimizin “mərkəz hücumçusu” olmuş usta bir qələm sahibinin keçdiyi uzun yola işıq salır.

Sabir Rüstəmxanlının müxtəlif vaxtlarda, müxtəlif məkanlarda görüb müşahidə etdikləri, könlünün və zəkasının süzgəcindən keçirdikləri və oxucusuna çatdırmaq istədikləri məxsusi yanaşmalar kimi maraq oyadır, bizi düşünməyə, optimal nəticələr çıxarmağa vadar edir. Toplunun hər bölümü ayrıca, bitkin bir kitab təsiri bağışlayır. Qırmızı xətlə keçən əsas amal isə milli birlik yanğısı, özünə, sözünə, tarixinə bağlılıq, Vətən sevgisidir.

Kitabın “Dil, ədəbiyyat, cəmiyyət” bölümü bu baxımdan daha əhatəlidir. Müəllif son dövr ədəbiyyatımıza, gənclərin yaradıcılığına yanaşmalarında sırf obyektiv mövqe nümayiş etdirir, toxunduğu mövzuları dərindən təhlil edərək əsaslı nəticələrə gəlir, qərəzsiz münasibət sərgiləyir. Onun Azərbaycan ədəbiyyatı adına hesabatları prinsipiallıq, canıyananlıq nümunələri kimi diqqət çəkir. Bu baxımdan “Cavid imtamov, Mir Cəlal, Əli Vəliyev, Ənvər Məmmədxanlı, Məmməd Araz, Musa Yaqub, Anar kimi kamil qələm sahibləri haqqında müəllifin filoloq, dost, şair və oxucu kimi özəl fikirləri yer alıb. Eyni zamanda, daha gənc nəslin təmsilçiləri olan Elçin Hüseynbəyli, Rüstəm Behrudi, Zirəddin Qafarlı, Yunus Oğuz və başqaları haqqında fikirlər oxucu tərəfindən gözəl təqdimatlar kimi qəbul olunur.

Kitabın “Sərhədlərdən o yana” bölümü də son dərəcə cəlbedicidir. Burada ədəbiyyatımızın dostları, dünya səviyyəli ünlü sənətkarlar, onların yaratdığı sənət körpüləri diqqətəlayiq faktlar əsasında və qədirbilənliklə təqdim olunur. Oxucu mütaliəsinə başladığı heç bir yazını son cümləsinədək oxumamış kitabı yerə qoya bilmir. Sanki müəlliflə bərabər söylənən olayların daxilinə nüfuz edir, onların canlı şahidinə çevrilirsən.

Sabir Rüstəmxanlının ədəbi yaradıcılığının tarixi sayıla biləcək bu kitabda ömrün əlli illik bir dövrü ərzində qələmə alınmış qeydlər, esselər, resenziyalar və milli-mənəvi dəyərlərə dair qənaətlər muncuq dənələri kimi ipə-sapa düzülüb.

Kitabın bir maraqlı cəhəti də burasıdır ki, Sabir Rüstəmxanlı toplunu hazırlayan zaman köhnə mətnlərə toxunmayıb. Necə deyərlər, məqalələrin yazıldığı andakı ovqatı dəyişməyib. Hər şeyin ilkin formada, olduğu kimi saxlanması, əslində, müəllif səmimiyyətinin göstəricisidir. O, özü bunu belə izah edir: “Zaman sözümün hansının ədalətli, hansının ədalətsiz olduğunu göstərir. Mübahisəli məqamlar ola bilər, amma bu 50 ildə ədəbiyyatın xalqımızın taleyində oynadığı rol və bədii sözün ictimai missiyası barədə fikirlərim, ümumi ədəbi-estetik yanaşma və qiymətləndirmə tərzim dəyişməyib”.

Kitabla tanışlıqdan gəldiyimiz əsas nəticə budur ki, Sabir Rüstəmxanlının qələmə aldıqları küll halında ədəbiyyatımıza, millətimizə böyük sevgi ilə yazılıb. Buna görə də “Özümüzdən böyük sözümüz” kitabının oxucu dairəsində böyük maraq doğuracağına əminik.

**Əli NƏCƏFXANLI,**
**Xalq qəzeti”**